

ABŞ prezidenti Barak Obama Belçikanın baş naziri Elio di Rupoya mərcdə 2 yeşik pivə uduzub. Modern.az xarici mətbuata istinadən xəbər verir ki, mərc bu yay Braziliyada keçirilən Dünya Çempionatı zaman iki ölkə yığmalarının 1/8 final mərhələsindəki oyunu ilə bağlı bağlanıb. Hətta oyun öncəsi belçikalı nazir Di Rupo ABŞ prezidentinə tvitter mesajı da atıb: “Ey, Obama mən “qırmızı şeytan”ların sizin yığmanızı məğlub edəcəyini əla Belçika pivəsi ilə mərc edirəm”.

Həmin oyun isə Belçikanın 2:1 hesablı məğlubiyyəti ilə başa çatıb. Sentyabrın 12-də isə ABŞ-ın Belçikadakı səfirliyi Di Rupoya 2 yeşik pivənin çatdırılması ilə bağlı tvitterdə mesaj yerləşdirib.

Hədiyyə ilə yanaşı Belçika baş nazirinə Obamanın məktubu da göndərlib: “Amerikalılar olaraq belçikalılarla hər bir sahədə əməkdaşlıq etməyə hazırıq. Yalnız futbol meydançası istisna təşkil edir. 2018-ci ildə görüşərik”.